***Rəcəbov Məmmədəmin İbrahim oğlu***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işçisi*
E-mail: mamedamin@mail.ru

# GÖYÇAY VƏ UCAR RAYONLARININ İLK ORTA ƏSR KƏND TİPLİ YAŞAYIŞ YERLƏRİ

**Açar sözlər:** Kənd, ilk orta əsr, Şirvan, yaşayış yeri, Qafqaz Albaniyası

**Ключевые слова:** деревня, раннее средневековье, Ширван, поселение, Кавказская Албания

**Key words:** village, early middle age, Shirwan, settlement, Caucasian Albania

Göyçay və Ucar rayonlarının nəinki ilk orta əsrlər dövründə, hətta daha qədim dövrlərdən əhalinin məskunlaşdığını sübut edən yaşayış yerləri, arxeoloji abidələri vardır. Müşahidələr, arxeoloji qazıntı və çöl tədqiqat işləri zamanı bölgədə ilk orta əsrlər dövrünə aid kənd tipli yaşayış yerləri aşkarlanmışdır. Orta əsr mənbələri də bölgədə yaşayış məntəqələrinin olması haqqında məlumatlar verir. Kür çayının sağ və sol sahili, eləcə də Göyçay dərəsi boyunca kənd tipli yaşayış yerləri yerləşmişdir. Qeydə alınmış kəndlərin yaxınlığında ilk orta əsrlər dövrünə aid yaşayış binalarının qalıqları, qəbir abidələri aşkar olunmuşdur. Qəbir abidələri, aşkar edilmiş üzərində alban yazısı olan abidələr burada Qafqaz Albaniyasının yaşayış məntəqələrinin mövcud olmasını bir daha təsdiq edir. Yerli əhalinin təsərrüfat işləri zamanı aşkar etdikləri abidələr, torpaq altında qalmış qəbirstanlıqlar burada ilk orta əsrlərdə əhalinin sıx yaşadığını və kəndtipli yaşayış məntəqələrinin çoxluğunu göstərir (1.145-158). VII – IX əsrlərdə ərəblərin köçürmə siyasəti nəticəsində Göyçay bölgəsində bir sıra ərəb mənşəli kəndlər meydana gəlmişdir. Əsrlər boyu tez-tez müharibələrin, münaqişələrin baş verməsi bir çox yer adlarının dəyişməsinə, və yaxud da birdəfəlik tarixdən silinməsinə gətirib çıxarmışdır. Yazılı mədəniyyətin çox sonralar meydana gəlməsi ilə əlaqədar olaraq vətən tariximizin bu və ya digər problemlərni öyrənmək bir çox hallarda çətinliklərlə üzləşmişdir. Azərbaycan şəhərlərinin, kəndlərinin və s. coğrafi adların əsrlər keçdikcə dəyişərək qədimliyini itirməsi tariximizin aktual problemlərindən birinə çevrilmişdir. Coğrafi adlar yüzillər boyu formalaşaraq dilin inkişaf xüsusiyyətlərinə uyğun olaraq dəyişmişdir. Azərbaycan ərazisində bir çox belə toponimlər, yer adları vardır. Ümumiyyətlə, Azərbaycanda toponim kimi adında "Ərəb" sözü olan 33 kənd məlumdur. Bu yaşayış yerlərindən bir qismi aşağıdakılardan ibarətdir. Azərbaycanda islam dininin qəbul edilib yayılmasından sonra Göyçay ərazisində binə olunan Ərəb, Ərəbşahverdi, Mirzəhüseynli, Şəhadət, Qarabağlar, Üngütlü, Şıxlı kimi "cavan" kəndlərin ən azı 1200 ildən çox yaşı var. Qaraman, Qarabaqqal, Ləkçıplaq, Çaxırlı, Alpout və bir çox digər kəndlərin isə tarixi 2000 ilə yaxındır. Ərəbcəbirli yaşayış yeri Göyçay rayonunun Şəhadət i.ə.v.-də eyniadlı kənddə yerləşir. Şirvan düzündədir. Kənd orta əsrlərdə *ərəb* mənşəli ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Etnotoponimdir. Kür və Göyçay çayı boyunca dağətəyi və dağlıq ərazilərdə bağçılıq, üzümçülük geniş və əsas təsərrüfat sahəsi kimi hələ qədim dövrlərdən mövcud olmuşdur. Bağçılıq və üzümçülük orta əsrlər dövründə deyil, sonrakı əsrlərdə, o cümlədən XX əsrdə də belə əsas təsərrüfat sahələrindən olmuşdur. XII əsrdə də bəhs etdiyimiz bölgədə zəngin və barlı-bərəkətli bağlar, üzümlüklər mövcud olmuşdur. Hələ ilk orta əsrlər dövründə bölgədə üzüm bağlarının bolluğu burada həm də şərabçılığın inkişafına səbəb olmuşdur. Orta əsr müəlliflərinin bir qayda olaraq Cənub-qərbi Şirvan bölgəsinin münbit torpaqları, əlverişli iqlimi, barlı-bəhərli bol bağları və üzümlükləri haqqındakı təsvir və məlumatlarına istinadən deyə bilərik ki, bölgədə bağçılıq yaxşı inkişaf etmiş və buranın bağları ilk orta əsrlər dövründə məşhur olmuşdur.

Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhəri olanda çayın sahilindəki kiçik Göyçay

şəhəri xeyli inkişaf edir, əhalisi artır. Şəhərdə çoxlu karvansaraylar tikilir, sənətkarlar məhəllələri salınır. Arandan Qəbələyə qalxan ən yaxın və əlverişli yol bu şəhərin üstündən olub. Qəbələyə gedən tacirlər, digər məqsədlərlə bu şəhərə yola çıxanlar Göyçayda dayanırmışlar. Bir neçə gün istirahət, miniklərə qulluq, müxtəlif alış-veriş, üzü dağlara doğru son yolçuluq üçün güc qüvvə toplamaq karvanlar, Qəbələdən qayıdan digər yolçular yenə də bu şəhərdə dayanar, daha uzaq səfərlərə zəruri hazırlıqlarını görərmişlər. Bu şəhər orta əsrlər dövründə bütün yaşam şərtlərində Qəbələ ilə bağlı olub. Hətta şəhərin çay boyunca mərkəzi küçəsi elə o vaxtlardan Qəbələ adlanıb. Yəni Qəbələ yolu, Qəbələ meydanı (2.35).

Göyçay hövzəsində aparılan arxeoloji qazıntılar və geoloji tədqiqatların nəticələri göstərir ki, hələ orta əsrlərdə ərazidəki filiz yataqlarından səmərəli istifadə edilmiş, əldə olunan metal filizləri imkan və şəraitdən asılı olaraq ya mədənlərin yanında, bəzi hallarda isə şəhərlərin özündə emal edilmişdir. Ərazinin ucuz yanacaq materialı olan meşəliklərlə əhatə olunması istehsal prosesinin inkişafına müsbət təsir göstərmişdir.

Bölgədəki yaşayış yerlərindən ilkin arxeoloji tapıntılar IV –VII əsrlərə aid tunc, qızıl və gümüşdən hazırlanmış bəzək əşyalarından və VIII əsrə aid gümüş pullardan ibarətdir. Həmin mədəniyyət qalıqları 1973-cü ildə Göyçayın II Ərəbcəbirli kəndində qəbristanlıqdan tapılmışdır. İkinci tapıntı 1976-cı ildə yenə də Göyçayın Aşağı Qaraməryəm kəndi yaxınlığında su anbarı tikintisi zamanı qeydə alınmışdır. Burada küp, küp qırıqları, kasa qırıntıları, insan fiqurları b.e.ə. II-I və b.e. I əsrdə bu ərazidə yaşamış əkinçi tayfaların ideoloji təsəvvürləri ilə əlaqələndirilir. Əldə olunmuş saxsı məmulatı şirli və şirsiz olmaqla məişət və təsərrüfatda işlədilmiş müxtəlif qabların hissələrindən ibarətdir. Qabların hamısı dulus çarxından istifadə olunmaqla səliqəli hazırlanmış və yaxşı bişirilmişdir. Onların səthi qonur, yaşıl, mavi, sarı, qəhvəyi rəngli şirlə örtülmüş və anqoblanmışdır. Şirsiz saxsı məmulatı əsasən qazan tipli qabların sınıqlarından ibarətdir. Bir ədəd qazan tipli qabın ağız kənarında qulp əvəzi üçbucaq formalı çıxıntısı vardır(5.14). Bu tip qulplar Azərbaycanın daha qədim dövrlərə aid keramika məmulatı üzərində rast gəlinir. Şirli qabların üzəri həndəsi (konsentrik çevrələr, bucaqlar, dalğavari xətlər, çarpaz naxışlar) və nəbati (gül ləçəyi, yarpaq və buta) naxışlarla bəzədilmişdir. İlkin tədqiqatlar bu yaşayış yerində mədəni təbəqənin qalınlığının 0,5 metrdən artıq olduğunu müəyyənləşdirdi. Əldə olunmuş arxeoloji materiallar XII – XVII əsrlərdə ərazidə intensiv yaşayış olduğunu söyləməyə imkan verir. Lakin bəzi saxsı məmulatı ərazidə nisbətən qədim dövrlərdə (ilk orta əsrlər) yaşayışın mövcud olması ehtimalını irəli sürməyə imkan verir.

Köçəri tərəkəmə tayfaları yerli əhali ilə qaynayıb-qarışmşdır. Ərəb işğalları zamanı Göyçay ərazisi işğal məntəqəsinə çevrilmiş və buraya ərəb tayfaları köçürülmüşdür. Şamaxıdan köçən Ərəbcəbirli kəndinin əhalisi indiki I və II Ərəbcəbirli kəndlərinin ərazisində məskunlaşmışdır. VII əsr ərəb səyyahı Göyçay çayı sahilində yerləşən Təhlə yaşayış məntəqəsində olmuş və Göyçay əhalisinin ona təmənnasız olaraq ərik və tut qurusunu sövqat verməsini yazmışdır. Digər səyyah Üveys əl-Qərari Qarabağlar kəndi ərazisində olmuş və Surxay qalasının adını Surxay xanın adı ilə bağlamışdır.Ərəb dilindən tərcümədə “surx”, “surxab”, “surxub”, “qala divarı” deməkdir.

Göyçay ərazisində 55 kənd yaşayış məntəqəsi vardır. Kəndlərin adları yalnız XIX əsr Azərbaycan tarixi ilə bağlı ədəbiyyatda çəkilir. Bığır, Qarabaqqal, Ərəbcəbirli kəndləri XVIII əsrə aid karvan yolunun dayanacağı kimi qeyd edilir**.** Göyçay rayonu Yekaxana kəndi ərazisində yerləşən yaşayış yerində 1965-70-ci illərdə F.Osmanov ilk orta əsrlər dövrünə aid müxtəlif növ maddi-mədəniyyət nümunələri tapmışdır. Tapılan materiallar içərisində saxsı nümunələri üstünlük təşkil edir (4.23). Müxtəlif vaxtlarda Yekəxana ərazisində təsərrüfat işləri zamanı xeyli keramika nümunələri tapılmışdır. 2012-ci ildə isə yer şumlama prosesi zamanı kiçik küp qəbir dağıdılmışdır. Qeyd etdiyimiz maddi mədəniyyət nümunələri kəndin əkin sahələrinin yerləşdiyi

ərazidə, təzəkənd yolunun sağ tərəfində üzə çıxarılmışdır. Boğaz hissəsi dar olan tayqulp qab isə son antik – ilk orta əsrlərin başlanğıcına aiddir. 2013-cü ildə aparılmış ilkin arxeoloji tədqiqatlar nəticəsində ərazidə III – VIII əsrlərdə yaşayış olduğu müəyyənləşdirilmişdir.

Xalac yaşayış yeri Ucar rayon mərkəzindən 20 km cənubda, Xalac kəndindən 2 km şimal-şərqdə yerləşir. Xələclər türkdilli Oğuz tayfası erkən orta əsrlərdə Amu Dərya çayının cənub sahillərində yaşamışlar. Onlar uzun müddət ərəb xilafətinin ordularında xidmət etmişlər. Adam Oleari də Muğanda xələc tayfalarının yaşadığını yazmışdır. Yaşayış yerinin qərb, cənub və şərq tərəfləri dərələrlə əhatə olunmuşdur. Xalac yaşayış yerinin cənub-şərq və şimal-şərq yamaclarında iki təbii bulaq yerləri vardır. Ərazi 10 ha-lıq sahəni əhatə edir. Buradan şirsiz saxsı məmulatı, dikinə basdırılmış küp və s. aşkar olunmuşdur. Fikrimizcə ərazidə ilk orta əsrlərə məxsus kənd tipli yaşayış yeri mövcud olmuşdur.

Göyçay rayonunun Aşağı Qaraməryəm kəndi yaxınlığında yerləşən eyniadlı yaşayış yerindəki abidə 1976-cı ildə su anbarı tikintisi zamanı maddi mədəniyyət nümunələri, o cümlədən çoxlu sayda saxsı nümunələri aşkarlanması ilə qeydə alınmışdır. Azərbaycan SSR EA Tarix İnstitutu tərəfindən bölgəyə arxeoloqlar Ə.Əliyev və A.Ələkbərov ezam olunmuşlar. Tədqiqatçılar burada xeyli sayda qiymətli maddi-mədəniyyət nümunələri toplaya bilmişlər. Ərazidən aşağıdakılı gil qab nümunələri toplanmışdır: süddanbiçimli kiçik küpə, qırmızımtıl rəngli küğə, üstü yaşıl rənglə və üstündə düz dalğavari xətlər keçən kiçik qap, içərisində yaşıl və sarı rəngdə ornamentləri olan qırmızımtıl kasa, çoxlu sayda gil qab qırıqları və s. tapılan nümunələr əsasən dar boğazlı küpələrdən və qalın divarlı gil qab oturacaqlarından ibarətdir. Tapılmış şirli kasa qırıqları üzərində düz xətt formasında olan həndəsi rəsmlər vardır (5). 2004-cü ildə Q.Cəbiyev Qaraməryəm tirəsindən cənubda Bəyimli qalası ərazisində kəşfiyyat xarakterli ilkin arxeoloji tədqiqat işləri aparmışdır (6. 333; 7.243-248)

Göyçay rayonunda yerləşən Şahsoltanlı yaşayış yeri eyniadlı kənddə yerləşir. Ərazidən xeyli miqdarda şirsiz saxsı məmulatı – küp, küpə, bardaq, qazan, xeyrə və s. tapılmışdır. Həmçinin, cam formalı ilk şirli qab hissələri də əldə olunmuşdur. Bu tip camların oxşarları Səlbirdə bir rəngli şirli camlar kimi aşkar edilmişdir. (8.10)

Göyçay rayonunda daha bir ilk orta əsr kənd tipli yaşayış yeri Yekəxana kəndi ərazisində yerləşir. Tədqiqatlar nəticəsində Yekəxana ərazisində ticarət yolu ilə əlaqədar körpü, müşahidə qalası və hündür yerdə tikilmiş tikinti qurğusunun qalıqları qeydə alınmışdır. Yekəxana qəbristanlığında XI – XII əsrlərə aid xatirə daşları, latın və alban işarələri ilə üstü yazıldığı güman edilən saxsı və daş parçaları və digər maddi-mədəniyyət nümunələri qeydə alınmışdır. Arxeoloji kəşfiyyat işləri Varvara ərazisində IV-XIII əsrlərdə intensiv yaşayışın olduğunu söyləməyə əsas verir. Qeyd edək ki, oxşar maddi mədəniyyət nümunələri Qarqarçay hövzəsindən və Qaraköpəktəpə abidəsindən də əldə edilmişdir (10.114-117; 11.179-186)

Ucar rayonundakı indiki Bərgüşad kəndi Cənub-qərbi Şirvanın qədim yaşayış yerlərindən biridir. Bu tayfanın maldarlıqla məşğul olmaq, qışlamaq, yeni otlaq sahələrinə yiyələnmək məqsədi ilə buraya köçüb gələrək, oturaq həyat tərzinə keçərək məskunlaşması nəticəsində əmələ gəldiyin ehtimal edilir. Monqol hökmdarı Çingiz xanın oğlu Çuginin 1207-ci ildə qərbə doğru yürüşü zamanı başqa tayfalarla yanaşı Bərgü tayfasının da torpaqlarının tutulması məlumdur. İran salnaməçisi Fəxrəddin Mübarək Şah XII əsrdə 58 türk tayfası arasında Bərgü tayfasının da adını çəkib. Fəzilullah Rəşidəddin XIII əsrdə bu etnonimini "bərgüt" (Bərgülər kimi qeydə almışdır). Burada yaşayanlar vaxtılə Göyçay qəzasına gəlib-getmək üçün indiki Bərgüşad dəmir yolu stansiyası ərazisindən yol salmışlar. İndi də bu yol Bərgüşad yolu adlanır. Hazırda respublikamızın Qubadlı rayonunda kənd və Kiçik Qafqazda Bərgüşad çayı və Bərgüşad adına dağ vardır. Bərgüşad toponimi dörd coğrafi obyektin: çay, dağ, kənd, dəmir yolu stansiyası adının tərkibində iştirak

etmişdir. Keçmişdə İrəvan xanlığının Sərdarabad mahalında da Bərgüşad adlı kəndin olması göstərilir.

Orta əsrlərdə Bərgüşad indiki Araz çayına tökülən Əkəri çayı ilə Bərgüşad çayı arasındakı ərazini əhatə etmiş, burada vaxtilə Bərgüşad adlı kənd olmuş, sonralar onlar köçəri maldarlığın inkişafı ilə əlaqədar olaraq Kür-Araz ovalağına, o cümlədən, Ucar rayonuna gəlib çıxmışlar.

Bərgüşad sözü ədəbiyyata XV əsrdən məlumdur. XVI əsrə aid mənbələrdə göstərilir ki, Bərgüşad tayfa adı olmaqla Qızılbaş tayfalarındandır. Səfəvilər dövründə Bərgüşad Qızılbaş tayfalarının tərkibinə daxil olmuşdur. Bir sıra alimlərə görə taponimin birinci kompanentini təşkil edən Bərgü sözü qədim türk mənşəli "barq" tayfasının adıdır. Bərgüşad toponimi hələ tamamilə öyrəlilməmişdir. Bərgüşad türk tayfasına mənsub addır. Bu tayfa öz adını Bərgüşad zonasından almışdır. Bərgüşad toponiminin arealı genişdir. Məsələn; Bərgüşad sıra dağları, Bərgüşad çayı, Bərgüşad çökəyi və s. yer adları vardır.

Tədqiqatçıların fikrincə, bərgülər monqol işğalından xeyli əvvəl Azərbaycanda məskunlaşmışlar. Toponimin tərkibindəki Şad (şat) sözü olan yaşayış məntəqəsi adları geniş yayılmışdır. Oykonim "bərgülərin kəndi" mənasını bildirir. Həm də Bərgüşadın tərkibindəki "şad" sözü "sevinc, şadlıq, məskən, çeviç" və s. mənalarını da verir. Bərgüşad kəndində aparılmış ilk arxeoloji qazıntılar burada hələ eramızdan əvvəl yaşayış yerləri olduğunu sübut edir. Burada Qaratəpə, Qızıltəpə və digər adsız təpədə e.ə. II əsrə, b.e.ilk əsrlərinə aid küp qəbirlər aşkar edilmişdir. Bu qəbirlər küpün böyüklüyü ilə (hündürlüyü 2 m-dək), ölünün küpdə arxası üstə qoyulmasına və istiqamətinə görə Azərbaycan ərazisindəki başqa küp qəbirlərdən əsaslı şəkildə fərqlənir. Bərgüşad kəndi yaxınlığında qeydə alınmış arxeoloji abidələrdən biri Adsız təpə adlanır. Burada aparılan arxeoloji qazıntılar nəticəsində e.ə. II əsrə və eramızın ilk əsrlərinə aid küp qəbirlər aşkarlanmışdır. Hündürlüyü 2m-ə çatan bu küp qəbirlərində ölülər arxası üstə uzadılmış şəkildədir. Istiqamətinə görə bu küp qəbirlər Azərbaycanın digər ərazilərində aşkarlanıb tədqiq olunan küp qəbirlərdən fərqlənir. Buradan müxtəlif tarixi dövrlərə aid maddi-mədəniyyət nümunələri - bəzək əşyaları, gil qablar və s. tapılmışdır. Arxeoloji materialların analogiyası Mingəçevirin ilk orta əsr təbəqəsi ilə eynilik təşkil edir.(2.41) Təpəyə ad verilmədiyindən o Adsız Təpə kimi qeydə alınmışdır. Bərgüşad kəndi yaxınlığında digər yaşayış yeri Qızıltəpə yaşayış yeridir. Toponim "qırmızı təpə" mənasındadır. Doğurdan da təpənin süxurlarının rəngi qırmızıya çalan qızılı rəngdədir. Qızıltəpədə kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri aparılmışdır. Burada təndir qalıqları, təsərrüfat küpləri qırıqları, e.ə. II əsrə, eləcə də, sonrakı dövrlərə aid küp qəbirlər aşkarlanmışdır. Azərbaycanın Qubadlı, Qusar, Zəngilan, İmişli, Kəlbəcər, Fizuli və digər bölgələrində Qızıltəpə oroniminə rast gəlinir.

Ucar rayonunun Çiyni və Alpı kəndi arasında, BTC neft kəmərinin 166-167-ci km-də yerləşən düzən ərazidə torpağın üst qatlarının götürülməsi zamanı müxtəlif növ saxsı məmulatına məxsus fraqmentlər əldə edilmişdir. İlkin tədqiqatlar ərazidə orta əsrlərə aid yaşayış məskəninin olduğunu müəyyənləşdirmişdir. Yaşayış yeri 3 ha-dan artıq sahəni əhatə edir. Ötən əsrin 70-ci illərində ərazinin süni suvarması məqsədi ilə aparılan meliorasiya işləri zamanı abidənin üst qatı qismən dağıdılmışdır (3. 214).

Aparılmış müşahidə və araşdırmalar orada mədəni təbəqənin qalınlığının 0,5 metrdən artıq olduğunu müəyyənləşdirmişdir. Əldə olunmuş arxeoloji materiallar XII – XVII əsrlərdə ərazidə intensiv yaşayış olduğunu söyləməyə imkan verir. Bununla belə ərazidən tapılan bəzi materiallar orada hələ ilk orta əsrlər dövründən başlayaraq yaşayış olması ehtimalını irəli sürməyə imkan verir. Fikrimizcə, orada alt təbəqə ilk orta əsrlər dövrünə aid olmuş, onun əsasında sonrakı dövrün kənd tipli yaşayış yeri qismən böyümüş və intensiv həyat əsrlər boyu davam etmişdir. Dəllər yaşayış yeri Ucar rayonunun Qaradağlı kəndi ərazisində yerləşir. Dəllər tayfa adıdır. Mənbələrin məlumatına görə qədim dəli (tele) türk tayfası ilk orta əsrlərdə Balxaş gölü ətrafında yaşamışdır. V əsrdə

yüz min alaçıqdan ibarət telelər İrtış çayını keçərək Xəzər və Aral dənizi arasında öz dövlətlərini yaratmışlar. 704-cü ildə Türk xaqanlığı dağıldıqdan sonra Xəzərlərin, qıpçaqların tərkibində Azərbaycana gəlmışlər. Dəllər tayfası ilə bağlı Azərbaycanda Dəllər (Saatlı, Xızı, Şəmkir), Dəllər Cəyir, Dəllər cırdaxan (Şəmkir rayonu), Dəlləkli, Dəlləkli (Quba Zəngilan, Yardımlı, Masallı, Tovuz) adlı kəndlər var. 1969-cu ildə Dəllər yaşayış yerindən 300 m şərqdə yerləşən Dəllək təpədə arxeoloji kəşfiyyat qazıntısı nəticəsində 6 x 7 m ölçüdə olan çökəklikdə 2 x 6 m ölçüdə ərazidə şirsiz saxsı məmulatı hissələri üzə çıxarılmışdır. Qablar ilk orta əsrlər üçün xarakterikdir. Qazıntı sahəsinin şimal və şərq qurtaracaqlarında 1 m dərinlikdə insan sümükləri üzə çıxarılmışdır. İnsan sümükləri və çöküntülərin forma və ölçüləri onların kameraları çökmüş katakomba qəbirləri olduğunu söyləməyə imkan verir. Dəllək təpədən kirəmit qırığı, bozumtul rəngli, gövdəsinin ortasında lentvari dairəvi qulpu olan dulus çarxında hazırlanmış küpə qırığı, qırmızı rəngli kiçik gil qabın ayaq hissəsi əldə olunmuşdur. Əldə olunmuş arxeoloji materiallar yaşayış yerinin ilk orta əsrlərə aid etməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Qazıyev S.M. Qəbələdə aparılmış arxeoloji tədqiqat və qazıntıların ilk yekunları // AMM, VI c., Bakı, 1965
2. Qədirov F.V. 1970-ci ildə Şəki, Vartaşen və Qutqaşen rayonlarına arxeoloji səfərin elmi hesabatı // AMEA AEİEAF, № h – 105
3. Mustafayev M.M. Çiyni orta əsr yaşayış yeri // Tarix və onun problemləri, Bakı, 2004, № 4
4. Osmanov F.L. İsmayıllı rayonu ərazisində tapılmış antik dövr antropomorf fiqurlar haqqında // Azərb. SSR EA Xəbərləri THF seriyası, 1971, № 1
5. Ə.Əliyev, A.Ələkbərov. Göyçay rayonu ərazisində arxeoloji tapıntılar Azərbaycan SSR EA Xəbərləri, TFH seriyası,1986 №1
6. Cəbiyev Q.C. Ağsu rayonu ərazisində ilk orta əsrlərə aid şəhər yeri tapılmışdır Arxeologiya və Etnoqrafiya. Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əsərləri, 2004, №2 .
7. Cəbiyev Q.C. Azərbaycanın qədim tarixinə dair yeni tapıntı / AMEA məruzələri, 2005, №1-2
8. Qədirov F.V. Qəbələ arxeoloji ekspedisiyası Səlbir dəstəsi çöl-tədqiqat işlərinin elmi hesabatı (1982-ci il) // AMEA AEİEAF, № h – 253
9. Нуриев А.Б., Юсифов Ф.А. Археологические находки в Геокчайском районе /АЭИА(1973). Баку Элм,1974
10. Abbasov V.B. Qarqarçay hövzəsinin Albaniyanın ticarət tarixində yeri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, Bakı, N 2, 2011,
11. Исмаилзаде Г.С. Культурный слой Кавказской Албании на памятнике Гаракепектепе в Азербайджане // Труды Международной Конференции Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа, Баку, 2012.

***Мамедамин Ибрагим оглу Раджабов***

## СЕЛЬСКИЕ ПОСЕЛЕНИЕ ГЕКЧАЙСКОГО УДЖАРСКОГО РАЙОНА В РАННЕЕМ СРЕДНЕВЕКОВЬЕ

### *РЕЗЮМЕ*

При археологических раскопках в Гекчайском и Уджарском районах были обнаружены большом количестве сельских поселений относящиеся ко ранней средневековье. Интенсивное развитие экономики и культуры способствовали расширению связи племен Азербайджана со Средней и Передней Азией, улучшали экономическое блогополучие людей. Это можно наблюдать на поселениях эпохи ранней средневековье и в погребальных памятниках. Развитие ремесла, земледелия и скотоводства оказало положительное влияние на развитие искусства. Будущие археологические работы смогут помочь широкому изучению здешных памятников и будут полезными для изучения истории Азербайджана.

***Racabov Mammedamin İbrahim oglu***

**THE VILLAGE SETTLEMENTS OF GEOKCHAY AND UJAR REGION IN EARLY MIDDLE AGES**

***SUMMARY***

During the excavations at the south-east Shirwan were founded village settlements dated early middle easts. Intensive development of economy and culture anlarged ties of tribes in Azerbaijan with Middle and Western Asia, improved material wellbeing of people. It can be observed in settlements dated back to Bronze Age and in burial monuments. In the future excavations held in these sites will give the possibilities not only study more widely about area, but also will be valuable for the history of Azerbaijan.